# Azərbaycan və ya Avstriya / Reallıqlar

Əziz oxucu, əminəm ki, çoxlarınız istər sosial şəbəkələrdən, istərsədən dost-tanışdan belə sözlər eşidirsiniz… "Əşi, bizdə biznes qurmaq çox çətindir, Amerika, Almaniya heyf deyil… və s." Sözümüzün axırını yenə əvvəldə demək istəyirəm: "Azərbaycanda biznes qura bilməyən adam, inkişaf etmiş bazarda biznesi dünəndən qura bilməz" Bizim bazar boşdur, bizim bazarda böyük biznes imkanları var. "Böyük" dediyim zaman, mən miqyas olaraq demirəm, şans olaraq deyirəm. Niyə belə düşünürük? Ətraflı video-blogumuzdan baxa bilərsiniz.

Baxmısınız təkrar olsada deyim ki, o yerdə ki, biznes imkanları yaxşıdır, bazar dolu olur və əksinə. İnkişaf etmiş ölkələrdə rəqabət üstünlüyü tapmaq müasir dövrdə çox çətindir, hətta Azərbaycanlı üçün, bəzən imkansızdır. Axı bizim hələ, bazar iqtisadiyyatı biliklərimiz o səviyyədə deyil ki, inkişaf etmiş ölkədə biznes qurub, sistemli işlər görək.

Rusiyada yaşayan Azərbaycanlılar dediklərimizin təstiqləyir. Çünki, Rusiya bazarı Azərbaycan bazarından yalnız miqyasına görə fərqlənir və əlbəttə, savadlı Azərbaycanlı üçün Rusiyada biznes qurmaq, əvvəllər mümkün idi: bazar boş idi, rus tənbəl idi, biz daha ürəkli edik və s. Bugün, vəziyyət əlbəttə ordada dəyişib.

Əziz oxucu, fikirlərimizi ətraflı formada blog izah etməyə çalışmışıq. Sağ olun ki, bizi izləyirsiniz.

ƏLAVƏ OXUMAQ ÜÇÜN:

- Milli Brendlərin reytinqi
- Bayram açıq havada tədbir